# Xalqın böyük oğlu, dahi lider

Ulu öndər Heydər Əliyev Azərbaycan xalqının bütün tarixi boyu yetirdiyi ən dahi şəxsiyyətlərdən biridir. Ulu öndərin 1969-cu il iyulun 14-də hakimiyyətə gəldiyi gün həyatımızın olduqca mühüm tarixi hadisəsidir. Bu gəliş dövlətçilik tariximizdə dinamik, hərtərəfli inkişaf və intibah epoxasının başlanğıcını qoyub. Heydər Əliyev hələ sovet rejimi şəraitində bəşəriyyətin ən aktual çağırışlarına cavab verməklə iqtidarında olan müasir ruhlu yeni rəhbər nümunəsi idi. O, Azərbaycanı geri qalmış aqrar bir respublikadan keçmiş İttifaqın sənayecə inkişaf etmiş respublikasına çevirdi. Tükənməz enerjisi, qeyri-adi təşkilatçılıq bacarığı ona hər yerdə hörmət gətirmişdi, dünyanın ən ünlü siyasətçiləri onunla hesablaşırdılar, bu böyük şəxsiyyətə layiq olduğu yüksək ehtiram göstərirdilər.

Bəşər tarixinin yetirdiyi ən görkəmli şəxsiyyətlərdən olan Heydər Əliyevin parlaq siyasi zəkası və qətiyyəti sayəsində iki əsrin və iki minilliyin qovuşuğunda Azərbaycan öz milli-mənəvi dəyərlərini qoruyaraq üçüncü minilliyə tam müstəqil bir dövlət kimi inamla qədəm qoyub. Ulu öndərimizin fitri istedadı və polad iradəsi bütün sədləri yararaq və qarşıya çıxan heç bir çətinliyə baxmayaraq, Azərbaycanı olduqca mürəkkəb zamanın dalğaları arasından salamat çıxarıb, ona həm bölgədə, həm də dünyada layiqli yer qazandırıb. Olduqca gərgin bir dövrdə bu dahi şəxsiyyət çoxlarının edə bilmədiyini gerçəkləşdirib, müasir dünyanın ən aktual çağırışlarına cavab vermək bacarığı ilə dünyanın tanınmış dövlət və siyasi xadimləri sırasında həmişəlik öz layiqli yerini tutub. Xalqımızın yetirdiyi nadir dövlət xadimi yaşadığı fırtınalı həyatı boyu hər zaman xalqını, Vətənini düşünüb. Onun ürəyi daima Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi, doğma xalqının xoşbəxtliyi üçün çırpınıb, bir dövlət başçısı kimi Azərbaycanın ən çətin anlarında onu xilas etmək üçün misilsiz fədakarlıqlar göstərib, ölkəsini bəlalardan qurtarmağı bacarıb. 1982-ci ildə Sov.İKP MK Siyasi Bürosuna üzv seçilərək İttifaqı idarə edən vəzifəli şəxslərdən biri olarkən bu dahi siyasətçinin potensialı daha geniş miqyasda üzə çıxdı. Heydər Əliyevin SSRİ rəhbərliyinə irəli çəkilməsi Azərbaycanı dünyaya tanıtdırmaq üçün əlavə imkanlar demək idi və o, vətənini, xalqını dərindən sevən insan kimi, yaranmış şəraitdən maksimum istifadə etməyi bacardı. Azərbaycanlı Heydər Əliyevin Sov.İKP MK Siyasi Büro üzvü seçilməsi və ittifaq rəhbərliyində yüksək vəzifə tutması mühüm siyasi hadisə və xalqımız üçün böyük iftixar və qürur mənbəyi, xalqımızın milli özünüifadəsi və inkişafı faktının təsdiqi idi. Heydər Əliyev Sovet İttifaqının rəhbərləri arasında öz erudisiyası və qabiliyyətləri ilə seçilirdi.

Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra xalqımızın dahi oğlunun hakimiyyətdə olmaması çox böyük problemlər yaratdı. Çünki açıq-aydın görünürdü ki, hadisələrin təhlükəli məcrada inkişafı dövlətçiliyimizin süqutu, müstəqilliyimizin ikinci dəfə itirilməsi ilə nəticələnə bilər. Xalq yaxınlaşmaqda olan fəlakəti duyduğu üçün öz dövlətçiliyinin müdafiəsinə qalxdı, o vaxt Naxçıvanda yaşayan Heydər Əliyevi yenidən hakimiyyətə dəvət etdi.

Vətənin çağırışına heç vaxt biganə qalmayan ulu öndərimiz 1993-cü il iyunun 9-da Naxçıvandan Bakıya gəldi və iyunun 15-də Azərbaycan Respublikasının Milli Məclisinin sessiyasında Ali Sovetin sədri, həmin ilin oktyabrında isə xalqın böyük əksəriyyətinin səsini qazanaraq ölkə başçısı seçildi. Həmin vaxtlar hər şeydən əvvəl öz gərginliyi, dramatikliyi ilə yadda qalıb. Xalqın təkidi ilə hakimiyyətə qayıdan və ağır yükü cəsarətlə üzərinə götürən bu müdrik, təcrübəli siyasətçi ən ağrılı problemlərin öhdəsindən məharətlə gələ bildiyini bütün dünyaya nümayiş etdirə bildi. Heydər Əliyevin respublika rəhbərliyinə qayıdışı siyasi-iqtisadi böhran içində boğulan Azərbaycanı böyük fəlakətlərdən xilas etdi. Sabitlik əldə olunandan sonra dövlət quruculuğu istiqamətində təxirəsalınmaz addımlar atıldı, bir çox mühüm qanunlar qəbul edildi. Ölkə iqtisadiyyatının dirçəlişi yönümündə də vacib islahatlar və proqramlar həyata keçirildi.

Ümummilli lider Heydər Əliyevin milli dövlətçilik qarşısında ən böyük, misilsiz xidmətlərindən biri də müstəqil Azərbaycanın yeni neft strategiyasının hazırlanması və 1994-cü ildən uğurla həyata keçirilməsidir. Miqyasına görə XX əsrin analoqu olmayan qlobal layihələrindən biri kimi alternativ enerji mənbələri axtarışında olan müasir dünyanın yeni geoiqtisadi xəritəsinin müəyyənləşməsinə əsaslı təsir göstərən "Əsrin müqaviləsi" Azərbaycanın siyasi və iqtisadi cəhətdən möhkəmlənməsinə, beynəlxalq iqtisadi münasibətlər sisteminə sürətli inteqrasiyasına da təkan vermişdir. Çox qısa zaman kəsiyində bir çox inkişaf etmiş dövlətlərin əsrlərlə keçdiyi inkişaf yolunu inamla qət edən respublikamızın inanılmaz iqtisadi və siyasi nailiyyətlərinin bazisinə çevrilən bu layihə, eyni zamanda, Azərbaycanın yüksək siyasi iradəsini, milli maraqlarını sonadək müdafiə etmək, təbii sərvətlərinə sahib çıxmaq əzminin təntənəsi kimi tarixə düşmüşdür.

Azərbaycanın iri beynəlxalq layihələrdə iştirakı, Böyük İpək Yolunun bərpası, TRASEKA-nın reallaşması da ümummilli liderimizin bəşəri xidmətlərindəndir. Heydər Əliyev deyirdi: "Heç bir ölkə, ən böyük ölkə də öz çərçivəsində iqtisadiyyatını lazımi səviyyədə inkişaf etdirə bilməz... Tarixi Böyük İpək Yolunun bərpası, milli və regional nəqliyyat strukturlarının, beynəlxalq iqtisadi əməkdaşlığın inkişafı Avrasiya məkanında sülhün, sabitliyin və tərəqqinin möhkəmləndirilməsi üçün böyük əhəmiyyət kəsb edir". Ümummilli liderimizin gərgin əməyi sayəsində 1994-cü ilədək davam edən iqtisadi tənəzzülə son qoyuldu. Makroiqtisadi göstəricilər ilbəil yüksəldi. Dinamik inkişaf dövrü başlandı.

Ulu öndərimiz Heydər Əliyevin Azərbaycan dövlətçiliyi qarşısında başlıca xidmətlərindən biri də dövlət quruculuğunun hüquqi bazasının yaradılmasıdır. 1995-ci ildə qəbul olunmuş ilk Milli Konstitusiya Azərbaycan Respublikasının dövlət quruculuğunun hüquqi, dünyəvi dövlət kimi ilk dəfə olaraq insan hüquqlarının qorunmasını öz siyasətinin prioriteti kimi qəbul etdi. Əsası müstəqil Azərbaycan dövlətinin banisi, ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş quruculuq, milli dövlətçilik siyasəti nəticəsində qısa dövr ərzində dövlətimizin hüquqi-sosial bazası yaranmış, müstəqilliyi möhkəmlənmiş, ölkəmizin dünya birliyinə inteqrasiyası istiqamətində çox ciddi addımlar atılmışdır.

Elm və praktika hər bir xalqın inkişafının əsasıdır. Dünya təcrübəsi göstərir ki, bu istiqamətə xüsusi önəm verən xalqlar dünya arenasında layiqli yer tutur, davamlı və sabit inkişaf strategiyasını uğurla müəyyənləşdirirlər. Ümummilli liderin hələ Azərbaycana birinci rəhbərliyi dövründə böyük uzaqgörənliklə həyata keçirdiyi elmin təcrübə ilə vəhdəti siyasəti müstəqillik illərində milli ziyalı elitasının intellektual potensialının yüksəlməsində özünü göstərməklə aparılan islahatların praktik nəticələr verdiyini təmin etmişdir. Ümummilli lider Azərbaycanın davamlı inkişafının yeganə yolunu məhz xalqın yüksək bilik almasında, maariflənməsində görür, respublikada fundamental, texniki və humanitar elmlərin tərəqqisi üçün bütün zəruri tədbirləri həyata keçirirdi ki, sosial-iqtisadi sahələrdə davamlı inkişaf etsin. Azərbaycan Prezidenti İlham Əliyevin son illərdəki fəaliyyəti Heydər Əliyev tərəfindən əsası qoyulan mütərəqqi ənənələri uğurla davam etdirdiyini və yeni dövrün tələblərinə uyğun zənginləşdirdiyini göstərir. Məhz bunun nəticəsidir ki, bu gün biz iqtisadi inkişafın insan kapitalına döndüyünü, ən inkişaf etmiş ölkələrin səviyyəsinə yüksəlməmizi görür və bu uğurlarımızla reallaşan Dövlət Proqramı və layihələrdə iştirakımızla haqlı olaraq fəxr edirik. Bütün bunlar, şübhəsiz ki, ulu öndərimizin siyasi kursunun uğurla davam etdirilməsi, möhtərəm Prezidentimiz İlham Əliyevin bütün iqtisadi və sosial sahələrə qayğısı, səmərəli fəaliyyət üçün yaratdığı əlverişli şərait və imkanlar sayəsində mümkün olub. Prezidentin özəl sektora, təhsil sahəsinə diqqəti ardıcıl və müntəzəm xarakter daşıyır. Sahibkarlığın inkişafı üçün qəbul edilən Qanun, sərəncam və fərmanlar bu sahədə aparılır və davamlı islahatların daha sürətlə müvafiq ən mütərəqqi texnologiyaların tətbiqi, əməkhaqlarının müntəzəm olaraq artırılması, onların ixtisas biliklərinin yüksəlməsi bütün sahələrin dünya səviyyəsinə yüksəlməsinə imkan verib. Aparılan inkişafın davamlılığı ölkənin yüksəktempli inkişafı məsələsi öz məzmununu daha da genişləndirərək Azərbaycanın gələcək uğur modelinin əsasını formalaşdıran başlıca amil kimi gündəmə gətirilib, insan kapitalının möhkəmlənməsi və inkişafına xidmət edən ümummilli hərəkata çevrilib.

Heydər Əliyev mənəvi-siyasi irsinin ən layiqli davamçısı - dövlət başçısı İlham Əliyevin müəllifliyi ilə Azərbaycanın çağdaş tarixinin şanlı səhifələri yazılır. Təsadüfi deyildir ki, bəzi Qərb dövlətlərinin onilliklər boyu adlamış inkişaf yolunu qısa zamanda keçən müstəqil Azərbaycanın iqtisadi yüksəliş və demokratikləşmə sahəsində həlledici nailiyyətlərə imza atması dünyanın ən nüfuzlu politoloq və iqtisadçılarını belə heyran qoyub. Belə ki, Qərb dövlətlərinin bir neçə yüzillikdə keçdiyi inkişaf yolunu respublikamız çox qısa müddətdə başa vurmuş, siyasi mühitin liberallaşması və demokratikləşmə sahəsində həlledici uğurlara imza atmışdır. Cənab İlham Əliyev özünün praqmatik və rasional addımları ilə respublikada demokratik proseslərə yeni nəfəs vermiş, ölkənin iqtisadi resurslarının bu yöndə səfərbər olunmasına şərait yaratmışdır.

Göründüyü kimi, təməli ulu öndərimiz tərəfindən qoyulmuş möhkəm bünövrə üzərində müstəqil Azərbaycan daha da inkişaf edir, siyasi və iqtisadi cəhətdən qüdrətli dövlətə çevrilir. Ulu öndərimiz Heydər Əliyevin irsi böyük həyat məktəbidir və xalqımız ondan daima bəhrələnəcəkdir.

**Əliyar ƏSGƏROV,**
**"Bank olmayan kredit təşkilatı İDK"**
**MMC-nin baş direktoru.**